

# AĞZIDÖNMƏZ

## *Hər kəsin böyüklüyü qəlbinin genişliyi və düşüncəsinin dərinliyi qədərdir*

***Qulu Məhərrəmlinin noyabr ayının 2-də 65 yaşı tamam olur. Tanınmış ziyalıdır, alimdir, sözünün çəkisi olan televiziya tənqidçisidir, iti qələmli publisistdir. "Əməkdar jurnalist" fəxri adı var. Bu gün cəmiyyətdə gedən mənəvi proseslərin nəzəri cəhətdən önündə dayanır. Ölkənin, dövlətin, millətin xeyrinə olan bütün ciddi dəyişikliklərin qatı tərəfdarıdır.***

* * *

Mən elat, tərəkəmə mühitində böyümüşəm. Elat adamları sözü açıq deməyi, dediyinin dəyərini bilməyi həmişə üstün tutur. Elat adamlarının sözü qanundan, kitabdan ötədir.

Professor Qulu Məhərrəmli hansı səbəbdənsə yadıma düşəndə, ya da gözümə görünəndə düşüncəmdən şimşək kimi bir qənaətim keçir: Qulu ağzı dönməz adamdır.

Atam Zal Əziz oğlu belələri haqqında deyərdi: "Oğulun ağzı dönməzi... nənəm qurban belə oğula..."

Ağzı dönməz... ağzı dönməzlik... gərək düşüncəndə, qənaətində, fikrində, rəyində nə qədər aydın və duru olasan, bildiyinə axıracan inanasan və biləsən ki, bilirsən... Əgər bildiyinin naminə ağzına qılınc da çəksələr geri dönmürsənsə, bu, olur ağzıdönməzlik. Ağzıdönməzliyin min bir bəlası var; keçmiş zamanlarda adamı asırdılar, kəsirdilər, təqib eləyirdilər ağzıdönməzliyə görə. Sovet dövründə repressiyalar vardı ağzıdönməzliyə görə. İndi də gözdən, nəzərdən salmaqlar var, fəal həyatdan kənar qoymalar var... get, istəyirsən acından öl, sən bizə gərək deyilsən... bütün bunlar hamısı ağzıdönməzliyin fəsadlarıdır. Doğrudur, çətindir, əzablıdır, iztirablar hiddət və kədər dənizi yaradır və öz içindəki ağzıdönməzi boğmaq istəyir. Amma, ağzıdönməzlərin qənimi unudur ki, yaratdıqları məhrumiyyət və iztirab dənizləri ağzıdönməzlərin heç topuğundan da deyil, nəinki dizindən.

...Qulu Məhərrəmli hələlik mənim tanıdığım az, çox az ağzıdönməzlərdən biridir.

Doğrudur, elat adamları ağzıdönməzin yanında "ağzı yanmış" ifadəsi də işlədirlər. Özü də bu sözdə bir rəğbət, bir təəssüf çaları da var. Müşahidə eləmişəm, "ağzı yanmış yaman pis uladı..." - canavar nəzərdə tutulur. Qədim türk mənəvi mühitində canavar qurd toteminə çox yaxındır, üst-üstə düşən tərəfləri var; insanlar qurdu qarğımır, qurdun xatirinə canavarı da qarğımır, eləcə, "ağzı yanmış" deyir.

Elatda haqqına görə, inamına görə əzilmiş, sınmış adama "Onun ağzı yanıb deyirlər".

Ağzı dönməzlərin, ağzı yanmır. Çünki, qalanan ocaqlardan, edam tonqallarından çox yuxarıdadır.

Qulu Məhərrəmlini - müstəqillik dövrü Azərbaycan televiziyasının nəhəng qurucularından birini sevdiyi məkandan kənarlaşdıranda hamı dedi ki, Qulunun "ağzı yandı".

Nə qədər acı olsa da, cəmiyyətdə bu həqiqət var. İnsanın özünə qapılması, öz sərhədlərinə çəkilməsi, daxili aləmi ilə tək-tənha qalması... bütün bunlar "ağzıyanmışlıqdan" sonrakı depressiya mərhələsidir. Amma güclü xarakterlər daxilən sınmayan, bütövlüyünü mühafizə edən təbiətlər xüsusi instinktlə duyurlar ki, "...hətta qələbə çalsa belə, haqsızı qalib saymaq olmaz. Qalib haqlı olandır". Bu sözlər də elə Qulu Məhərrəmlinindir. Antik filosoflarsayağı hökm onun daxili aləminin, mənəvi mühitinin düsturudur. Qulunu sınmaqdan qoruyan bu inamdır.

*(Davamı 16-cı səhifədə)*

Kredo 2019.- 1 noyabr.- S.1;16.

# AĞZIDÖNMƏZ

*Hər kəsin böyüklüyü qəlbinin genişliyi və düşüncəsinin dərinliyi qədərdir.*



*(Əvvəli 1-ci səhifədə)*

...Elatda yenilməyən... adama “güllə batmazı var” deyirlər.

Qulunun - onlar unudurdular ki, “odda yanmaz, suda batmaz” təbiəti var. Nəzərləri divarları kəsib keçir.

Qulu sözü idarə edə bilmək ustadıdır. Ən dəhşətli tufanda, qasırğada belə gəmini qayalıqlardan keçirə bilən fəhmli kapitana çox bənzəyir. Sözü elə işlədir ki, min bir rəngin, çaların hamısını ehtiva edir.

Sözünə rəng verərlər? - bəli, Quludan bu suala da cavabı eşitmişəm: əsas məna bütün rənglərin harmoniyasındadır. Sözə rəng vermək istəyənlər isə özlərinə uyğun gələn məqsəd, məram tələbatına cavab verən rəngdən yapışırlar. Bu bir çalar hara döndərsən yarımçıqdır. Ona görə də iddialar havada qalacaq.

Nə üçün Qulu sözünə süni şəkildə veriləcək yanlış rəydən qorxmur? Çünki sözünün yiyəsidir, sözünə sahib çıxmağı bacarır.

Hətta bəzən opponentlərinə kömək də eləyir: hələ bunları da deyə bilərsən. bədxahının işinə yarayacaq bir neçə mənanı da çözələyir.

Amma birdən balina okeanın dərinliyindən püskürüb qalxan kimi, sözün əsl mahiyyətini araya gətirir... və beləcə, müsahibini mat qoyur.

Bir dəfə məxsusi “20 Yanvar” reportajını dinləmişəm. Təxminən 8-10 saat birbaşa yayımla dediklərinin heç birini təkrar eləmədən görünən mənzərəni tarixlə şirəyə çəkərək söz dalğalarının dəyişmələri ilə axıracan odlu bir cazibəylə aparıb.

Odlu cazibə - dedim. Xeyr, Qulu Məhərrəmli həqiqi mənada nitq ustadıdır. Onun emosianal çılğınlığa, sanki heç ehtiyacı yoxdur. Təmkin, obrazlılıq və məntiq onun nitqinin başlıca əlamətləridir. Bu əlamətlər ona imkan verir ki, sözünün keyfiyyət gücünü də tənzimləyə bilsin.

Qulu gülərüz adamdır. Sanki dünyanın başından aşan dərdlərinin heç ona dəxli yoxdur. Amma əslində o, gülə-gülə dərdlərinə keşik çəkir: Yurd ağrısına, nadanların ağız-ağıza verib üstünə... “necəsən qanmayım dədən yansın” deyənlərin cılız birliyinə...dözməli olub. Bütün bunların hamısı dərd deyilmi?!

Qulu Məhərrəmli yaşamağı bacaran adamdır. Bəzən platformada platformada olduğu adamların xəyanəti belə onu sarsıda bilmir. Azərbaycanın klassik təfəkkür sahibi ziyalılarının - Bəxtiyar Vahabzadə, Şirməmməd Hüseynov, Hacı Hacıyev... Tofiq Hacıyev... və günümüzün görkəmli ziyalılarının Qəzənfər Kazımovun, Rafiq Əliyevin, Nizaməddin Şəmsizadənin, Ramiz Rövşənin və onlarca qeyrilərinin sözün həqiqi mənasında elitar şəxsiyyət, yüksək peşəkarlığa malik jurnalist. Bu qədər qayğının içərisində yüksək əyara malik elmi əsərlər yaradan alim kimi xarakterizə etdikləri Qulu Məhərrəmlinin zəngin təfəkküründən bu gün özünə müvafiq yerdə istifadə olunmaması yalnız cəmiyyətin itkisidir.

Əlbəttə, mən Qulunu göydən gəlmiş mələk kimi xarakterizə etmək istəməzdim. Demək Qulunu bir insan kimi qavramağı öz mühiti və zəmanəsi bacarmırsa bu artıq onun günahı deyil.

Nəsir İmamquluyevin, Famil Mehdinin, Şirməmməd Hüseynovun... Tofiq Rüstəmovun təmsil elədiyi zəngin və təməl prinsipləri ilə sağlam olan jurnalistika məktəbinin televiziya və radio üzrə ən üstün daşıyıcısı kimi Qulu Məhərrəmlinin yaradıcılığı artıq özü bir məktəbdir.




Radio və televiziya jurnalistikasının canlı olaraq örnəyi və yeni dövrümüzdə aparıcı nəzəriyyəçisi Qulu Məhərrəmlinin olması mübahisəsizdir. Və təəssüf ki, çoxlarımız bunu etiraf etmək istəmirik.

Qulu Məhərrəmli nə elmi araşdırmalarında, nə dövrə, zamana münasibət bildirən yazılarında... Dərs deməyində, çağırılan tədbirlərdə iştirakında, nə də ümumiyyətlə, həyatın tələb elədiyi bütün məqamlarda heç bir zəhmətdən qorxmur və çəkinmir. Hansısa bir müsahibəsində jurnalist ondan soruşur: “Bir neçə yerdə işləməyiniz mənəvi tələbatınızla bağlıdır, yoxsa maddi ehtiyaclarınızla”.

Professor çox aydın cavab verir: “Məsələnin maddi tərəfi də az önəmli deyil”.

Və bu yerdə bir etiraf da mənim könlümdən keçdi. Elə çörək ağacından yıxıla-yıxıla yaşayırıq. Və bu gün Azərbaycan ziyalısının bundan üstün dərdi yoxdur. Amma Qulu Məhərrəmli çoxlarımızdan fərqli olaraq çörək ağacını özü əkir... özü əkdiyi ağacdan yıxılmaq qorxusu isə yoxdur. Onun içindən bir nəhr axır. Yuxarılardan Ağrı tərəflərdən gəlir bu nəhr, üzü dənizə... və ümmana qovuşur. Zəngilanın Məhəmmədbəyli kəndinə (son vaxtlaracan Məmmədbəyli deyirdik) yolum dəfələrlə düşüb, Babaylıdan da keçmişəm. Diri dağının şimal üzündən... Gəyən çölündən, bozqır yovşanların arasından keçib gedən yol Məhəmmədbəyli türbələrinin lap yanından keçirdi.

Və bir anlığa düşünürəm ki, təzədən dünyanın bu çək-çevirindən sonra bir aydın səhər olub. Və biz də Qulu ilə birgə həmin yolu gedirik. Məhəmmədbəyli türbələrinin yanından ötürük... yox, ötmürük. Qulunun təkidi ilə düşüb türbələri ziyarət edirik. Və mən Qulunun yurd tarixinə səyahətini söz-söz dilindən eşidirəm, gözlərindən oxuyuram.

Bu da Babaylı kəndi Qulunun doğulub böyüdüyü kənd. Bir xaraba evin qabağında dayanırıq. Həyət-bacaya göz, nəzər yetiri-